# CƏLİL MƏMMƏDQULUZADƏ NƏSRİNDƏ AZƏRBAYCAN XALQINI KAMİL GÖRMƏK SƏYLƏRİ

A.MƏMMƏDOV

Bütün sahələrdə olduğu кimi Azərbaycan xalqını formalaşdırmaq səylərində də Mirzə Cəlil, yaradıcılığının bütün imкanlarından istifadə etmişdir. Çünкi Azərbaycan xalqının formalaşma prosesinin həlli bütöv bir xalqın taleyüкlü məsələsi idi.

Əlbəttə, belə bir elmi fiкir doğrudur кi, «Azərbaycanın etniк tarixi Azərbaycan xalqının formalaşması tarixindən qədimdir» (1). Deməli, əlbəttə, etnos qədimdir, laкin etnosun xalq кimi formalaşma prosesi sonraкı mərhələdir və mürəккəb prosesdir. «… Yeni dövrdə şərq xalqlarının, o sıradan Azərbaycan xalqının milli dövlətçiliк axtarışlarının ideoloji əsaslarını əкs etdirən … məhz Şeyx Cəmallədin Əfqani olmuşdur» (2). İlк dəfə «milli vəhdət fəlsəfəsini» irəli sürən Ş.C.Əfqani ideyalarından başlayan milli birliк, Azərbaycan xalqının bir xalq кimi formalaşması prosesi öz bəhrəsini vermişdi. A.Baкıxanov, M.F.Axundov, H.B.Zərdabi formalaşmış xalqın möhкəmlənməsi prosesinin Rusiyanın müdaxiləsindən sonra ləngiməsini duyaraq ona təкan verməк yolunda cəhdlər göstərdilər.C.Məmmədquluzadə yaradıcılığı Azərbaycan xalqının «milli vəhdət» ideyasının gerçəкləşmə prosesinə xüsusi əngəllərin mövcud olduğu spesifiк vaxta düşür.Dünya mədəniyyətinin, sivilizasiyanın doğulduğu Şərq və onun bir hissəsi olan Azərbaycanın indi Qərb dünyasından geri qalması təəssüfü bütün vicdanlı ziyalılar кimi Mirzə Cəlili də məşğul etmişdir.Əsərlərinin bütün mayasında Azərbaycan xalqını mənəvi cəhətdən bütöv, кamil görməк ideyası qırmızı xətlə özünü hiss etdirir.Biz bu yaradıcılığın nəsr qolu üçün də həmin ideyanı gerçəкləşdirməyi arzulayan sənətкar səsini, həm də böyüк vətəndaş sənətкarın səsini eşidiriк.

Yaradıcılığının hər hansı sahəsindən asılı olmayaraq, C.Məmmədquluzadə Azərbaycan xalqının bir xalq olaraq кamil şəкildə formalaşmasını maarifçiliк hərəкatının ilкin vəzifəsi hesab edirdi. «Ədibin dünyagörüşünün təşəккül və inкişafına güclü təsir göstərmiş olan maarifçiliк sonradan onun öz fəaliyyəti sayəsində bir sıra yeni кeyfiyyətlər кəsb etmişdir» (3). Cəsarətlə qeyd edərdiк кi, C.Məmmədquluzadə hansı əsəri qələmə almışdırsa, mütləq bütövlüкdə xalqı və onun formalaşması ideyasını əsas götürmüşdür. Onun elə bir bədii əsəri yoxdur кi, bu böyüк məsuliyyət yüкünü özündə daşımasın. Mirzə Cəlil «öz oxucusunun varlığa ayıq baxması, cəmiyyət və təbiət hadisələrinə ağıl və zəкa ilə yanaşması, bir

sözlə, mənəvi cəhətdən inkişaf edib yüksəlməsi məsələsinə xüsusi əhəmiyyət verirdi» (4). Onun xalqı sivil görmək məramı xalqın formalaşması prosesinin əsasını təşkil edirdi. «Danabaş kəndinin əhvalatları» bütün bədii məziyyətləri ilə bir yerdə həm də bədii məqsədə xidmət edir.Ədib bu əsərdə əzilən və bu əzilmədə öz huquqlarını tələb etməyən insanların dərdini ifadə etməklə, onların niyə bu günə qaldıqlarının səbəbini də göstərir. Buna səbəb bir çox faktorlar sırasında insanın öz huquqlarından, hətta təbii huquqlarından məhrum olmağı önə çəkilir. Və müəllif tipik bir kəndin simasında bütöv bir ölkənin gerçək mənzərəsini yaratmaqla həyəcan təbili çalır.Bütöv bir ölkənin tipik kəndində vətəndaş vətəndaşın halına acımağı belə yada salmır. İmkanı olan hər kəs özündən aşağını təhqir etməyə, yamanlamağa, onu ac-yalavac qoymağa, var-dövlətini əlindən çıxarmağa hazırdır. Xudayar bəyin ölən «dostunun» dul arvadı Zeynəbə inadkar «məhəbbəti» onun olan-qalanını əlindən almaqdır. Hətta Zeynəbin doğmaca oğlu da öz mənafeyi naminə doğma anasından imtina etməyə hazırdır və s.

«Ədibin təsvir etdiyi aləmdə yerli camaatla sadə və təmiz ana dilində danışmaq istəyən də yoxdur. Xalq nə din, nə də hökümət adamlarını başa düşə bilir» (5). Bu kənddə dünyanı dərk etməyən, əsrin yeni qaydalarından xəbərsiz insanlar yaşayır. Müəllif dünyadan xəbərsizliyin, avamlığın bir günahını rejimdə, imperiya siyasətində görürsə, digər tərəfini yeni həyat uğrunda mübarizədə əfəllik edən camaatın, müti və qul psixologiyasına şükranlıq edənlərin özündə axtarır.

Yuxarıda biz «Poçt qutusu», «Usta Zeynal», «Qurbanəli bəy», «İranda hürriyyət» və s. tipli onlarca nəsr əsərində Azərbaycançılıq ideyasını necə ustalıqla qoyduğundan söhbət açmışıq. Ancaq qeyd etməliyik ki, bu hekayələr ikinci bir məqamla da Mirzə Cəlil yaradıcılığının əhəmiyyətini artırır: azərbaycanlının bir xalq kimi formalaşması məqamını nəzərdə tuturuq.

Əlbəttə, «Poçt qutusu»ndakı Novruzəlinin adi poçt qutusuna nabələdliyi bir xalqın gerilik və savadsızlıq faktının ümumiləşdirilmiş faktı kimi maraqlıdır. Lakin bu kiçik hekayə həm də azərbaycanlının pis mənada şükranlıq, öz hüquqları uğrunda mübarizə barədə düşünməkdən belə çəkinmək faktını da ifadə edir: Novruzəli onun savadsızlığına bais olan, onu mütiliyə alışdıran xanda heç bir günah görmür, əksinə, əsərin sonunadək ona layiq olmadığı səmimi bir ehtiram göstərir. Yazıçı, əslində, novruzəlilərin sivil bir xalq kimi formalaşmasına mane olan xanı – bu kontekstdə ziyalını daha çox satira atəşinə tutur.

Belə də anlamaq olar ki, novruzəlilər savadsız və avam olduqları üçün düşünmək qabiliyyətləri belə yoxdur. Ancaq ədibin «Quzu» hekayəsində gününü eyş-işrətlə keçirən başqa bir xandan bir quzunun pulunu üç dəfə almağa nail olan kəndli belə düşünməyə o qədər də əsas vermir.Ədib göstərir ki, mütilik və şükranlıq xalqın qanına hopmuşdur və bu xarakterik keyfiyyətlərdən qurtulmayınca azərbaycanlının kamilləşmə prosesi ləngiyəcəkdir. Bu fikirlə bağlı «Danabaş kəndinin məktəbi» hekayəsinə də diqqət etmək yerinə

düşər. «Danabaş kəndinin əhvalatları» povestində təsvir olunan kəndin tam mütilik və avamlıq xarakteri «Danabaş kəndinin məktəbi»ndəki kənddə itaətkarlıq və qul psixologiyasından, az da olsa, narazılıq hissləri özünü göstərir.

Əvvəlcə onu qeyd edək ki, əslində bu kəndlər Mirzə Cəlilin təsvirində tipik Azərbaycan kəndi simasındadır. Deməli, yazıçı bu kəndlərin və onun adamlarının təsvirində ümumiyyətlə, bütöv bir xalqın ovqatını göstərməyə çalışır. Təsadüfi deyil ki, «Danabaş kəndinin əhvalatları» tək bir povesti deyil, ədibin silsilə nəsr əsərlərini ehtiva edir. Bu sırada «Danabaş kəndinin məktəbi» maraqlı bir yer tutur. Müəllif Azərbaycan xalqını yalnız avamlıq və mütilik kimi statik bir şəkildə deyil, onu getdikcə az-çox inkişafda, dinamikada təsvir edir. «Danabaş kəndinin əhvalatları»ndakı məğmun kəndlə «Danabaş kəndinin məktəbi»ndəki kəndin dinamikası bunu sübut edir.

Diqqət edək: «Bu hekayə yalnız adı, forma və üslub xüsusiyyətləri ilə deyil, mövzu, məndəricə,sənətkarlıq, satira və yumoru ilə də «Danabaş kəndinin əhvalatları» povestinə yaxındır» (6).

Hər iki nəsr əsərində kəndin adının «Danabaş» olması təsadüfi deyil. Əvvəla, həqiqətən Azərbaycan gerçəkliyində xalqın müəyyən ovqatını ifadə edən belə kənd adları çoxdur: «Ətçələr», «Lehməli», «Samanlı», «Düdüklü» və s. kənd adları yüz-yüz illərin arxasından gəlib bu gün də Azərbaycan reallığında yaşamaqdadır. İkincisi, bu kənd adı Mirzə Cəlil əsəbiliyinin – xalqın avamlığına, qanmaq, anlamaq istəməməsinə sənətkar əsəbiliyinin ifadəsidir. O bilirdi ki, yalnız bu cür sərt ifadələrlə xalqı öz hüquqlarını anlamağa, bir xalq kimi kamilliyə dəvət etmək olar. Təsadüfi deyil ki, təkcə C.Məmmədquluzadənin öz yaradıcılığında yox, habelə «Molla Nəsrəddin» jurnalının ümumi kontekstində «Danabaş kəndi» də xalqın geriliyinin, məzlumluğunun, ümumi ətalətin rəmzi kimi müntəzəm hallandırılmışdır.

Biz bu məqamda «Danabaş kəndi»nin adının yaranması probleminə bir daha qayıtmaq istərdik. M.S.Ordubadi xatirələrinin birində göstərir ki, «bir kənd adamının uzun-uzadı, yorucu məsnəvisindən doğan sufi təriqətinə çağıran məqamlarına diqqəti çəkən C.Məmmədquluzadə elə bu məclisdəcə onun qulağına həmin adamın başının dana başına necə oxşadığını pıçıldamışdır» (7).

Əlbəttə,kəndin adının C.Məmmədquluzadə nəsrində məhz bu assosiasiyadan doğduğu çox inandırıcıdır. Ancaq bu konkret bir kəndin deyil, bu tipli Azərbaycan kəndinin adıdır.

Yaradıcılıq, o cümlədən bədii yaradıcılıq obrazlardan yoğrulur. Və, əlbəttə, bunlar sənətkarın gördüyü, müşahidə etdiyi, real gerçəklikdə rast gəldiyi təsvir obyektlərinin proobrazlarıdır. Lakin sənətkar konkret olaraq götürdüyü və obrazlaşdırdığı hər kəsi və hər şeyi həm də mütləq ümumiləşdirir. Məntiqi nəticə budur ki, ümumiləşən obraz heç vaxt konkret ola bilməz. Deməli, «Danabaş kəndi», bir daha qeyd edirik, Mirzə Cəlilin gördüyü, müşahidə etdiyi bütün kəndlərin, XX əsrin əvvəlləri Azərbaycan kəndinin pro-

obrazı kimi qəbul edilməlidir.

«Danabaş kəndinin məktəbi»ndə Azərbaycan kəndinin qaranlıq vəziyyəti bir az ironiyalı, bir az lağlağı üslubda olsa da, dəqiq ifadə edilmişdir. Müəllif personajın «Yer üzündə nə qədər ki, Pərvədigari-aləm şəhər və kənd xəlq edib, hər nə qədər ki, vilayət yaradıbdır, onlar cəmisi çoxdan işıqlıq aləminə çıxıbdır; məhz qalıb «Danabaş kəndi» sözləri ilə Azərbaycan kəndini ümumiləşdirir. Ancaq diqqətlə nəzər yetirdikdə qazının sözlərində də kinayəni hiss etmək mümkündür. Bu kinayə əhval-ruhiyyəsi kəndin bütün sakinlərinə sirayət edib.

Mirzə Cəlil kəndin bu günə qalmasının əsas səbəbini qazının imperiya qüvvələri təmsilçisinin ünvanına dediyi aşağıdakı sözlərlə sətiraltı ifadə edir: «Ey camaəti-Danabaş! Biz hamılıqnan lazımdır ki, hər gün və hər gecə ibadət vaxtında bari – Pərvərdigara həmd eliyək ki, biz nə qədər xoşbəxt bəndəyik ki, bizim vilayətimizə belə hakim göndəriblər ki, ibarət olsun bizim nəçərnik ağadan. Bu özgə bir şey deyil, məgər allah-taalanın bizlərə lütfü və mərhəməti, amin» (8). Qazinin hər cümləsindən sonra camaat «amin» sədasını təkrarlayır. Bu da bütövlükdə kəndlilərin hamısının eyni ovqatda, eyni anlamsızlıqda olduğuna işarədir.

«Millət anlamı hər şeydən öncə etnik xalq toplumunun varlığını ifadə etməkdədir»(9). Lakin millətin, xalqın formalaşması üçün nə qədər müstəqillik lazımdırsa, müstəqilliyin qorunması və inkişafı üçün o dərəcədə güclü ordu vacibdir.Güclü ordu isə təcrübəyə əsaslanır.

Yuxarıda qeyd etdik ki, C.Məmmədquluzadə hansısa əsərində birbaşa və açıq şəkildə heç bir ideoloji məqam ifadə etməyib. Ümumiyyətlə, sənətkar ideyanı obrazlar, situasiyalar vasitəsilə gerçəkləşdirir.

Xalqın kamilləşməsi faktı bir çox proseslərdən keçir. Mirzə Cəlil bu proseslərin başlıcasını xalqın maariflənməsində, səmərəli əməkdə, iş görmək qabiliyyətində görür. «Usta Zeynal»ın, «Nigarançılığ»ın, «Şer bülbülləri»nin və s. nəsr əsərlərinin mahiyyətində xalqı bir xalq kimi görmək,mükəmməl, kamil azərbaycanlının yararlığını görmək arzusu dayanır. «Kişmiş oyunu» hekayəsindəki kəndlilərin bir qismi işlə məşğul olmaq istəyirlər. Əslində Danabaş kəndindən heç də yararlı olmayan Zurnalı kəndinin adamları qışı tövlədə keçirməklə məşğuldurlar. Kəndin az-çox qanan adamları soyğunçuluqla məşğul olan iranlıların ayağını Zurnalıdan kəsmək üçün maraqlı bir hadisə quraşdırırlar. Və onsuz da avara kəndlilərin avaralığına şərait yaradan bu adamları kənddən birdəfəlik qaçırırlar. «Geridə qalmış,avam, elm və mədəniyyətdən uzaq Azərbaycan kəndlilərini belə ayıq-sayıq görmək C.Məmmədquluzadəni çoxdan düşündürürdü. Arazın o tayından gələn acgöz, əmmaməli-qurşaqlı dilənçilərin fırıldağına inanmayan belə diribaş kəndli surətləri yaratmaqla ədib öz idealının bədii ifadəsini vermişdir» (10). Bu idealın arxasında isə bütöv bir xalqın hər cəhətdən formalaşması arzusu dayanır.

Xalqın kamilləşdirilməsi kimi ciddi bir prosesdə C.Məmmədquluzadə Azərbaycan qadınının cəmiyyətdə yeri barədə xüsusi nəsr

araşdırması aparmışdır.

Qadının cəmiyyətdə yeri çox ciddi ictimai, hətta siyasi problemdir. Dünya sivilizasiyasının böyük bir qolu qadının cəmiyyət həyatında fəal mövqe tutmasından keçmişdir. Təsadüfi deyil ki, zaman-zaman, demək olar ki, bütün ölkələrdə və bütün cəmiyyətlərdə xüsusi problemə çevrilən qadın azadlığı, qadının cəmiyyətdə yeri barədə ən ciddi filosoflar, ən ciddi ictimai xadimlər, ən ciddi mətbuat orqanları bütöv epoxaları əhatə edən mübarizələr yolunu tutmuşdur. O cümlədən Azərbaycan mütəfəkkirləri də qadın problemlərinin həllini özlərinin vacib vəzifəsi hesab etmişlər. Azərbaycanın klassik şair və yazıçılarının əsərlərində Azərbaycan qadınının ictimai mühitdə yeri ayrıca və geniş bir mövzu kimi qoyulmuşdur. Böyük Nizaminin, Füzulinin, Vaqifin, S.Vurğunun əsərlərində bu problem xüsusi tematikaya çevrilmişdir. Ümumiyyətlə, bizim fikrimizcə Şərqdə qadın problemi Qərbdən əvvəl qaldırılmışdır. Hələ XII əsr Azərbaycan ədəbiyyatının, eləcə də bütün Şərq dünyasının korifeyi Nizami Gəncəvi ədalətli şah, əməkçi insana və qadına qiymət kimi üç mühüm konsepsiyasında qadın probleminin təkcə öz ölkəsində deyil,bütövlükdə Şərq dünyasında həllini görürdü.

C.Məmmədquluzadə qadın azadlığını buxovlayan faktlar içərisində İslamı deyil, İslam qanunlarından öz mənfəəti üçün istifadə edən, bu qanunları özünə sərf şəkildə təfsir edən saxtakarları nəzərdə tutur.Bu mənada ədibin ən böyk və ən mükəmməl əsəri «Danabaş kəndinin əhvalatları»dır. Bu əsəri C.Məmmədquluzadənin Azərbaycan qadınına indiyədək olan münasibəti dəyişmək tələbindən irəli gələn üsyannamə kimi də qiymətləndirmək olar.

C.Məmmədquluzadə Zeynəbin taleyini, ağrı-acılarını, bir az da dəqiq desək, milli faciəsini qələmə almaqla qadına qarşı zorakılığı, imkanlıların öz istəklərini gerçəkləşdirmək yolunda hər cür qeyri-sivil qaydalara əl atmalarını qabartmaq istəmişdir. C.Məmmədquluzadə bu povestdə «feodal əxlaqının...insanları korlayıb zay etdiyini, nifaq, xəbislik, xəyanət, tamahkarlıq, dünya malına hərislik, acgözlük ruhunda tərbiyə etdiyini bədii cəhətdən əsaslandırır» (11). Zeynəbin öz ərinə sədaqəti, onun ölümündən sonra kimsəni qəbul edə bilməməsi və s. kimi keyfiyyətlərinin hamısı İslam dəyərlərinin saflıq təlqinindən, ədalət və səadət təlqinindən irəli gəlir. Ancaq Allahın yaratdığı bəndələr niyə belə insafsız, əclaf və acgözdürlər. Zeynəbin ara-sıra Allaha müraciəti və üsyanı məhz bu suala cavab axtarmasından doğur. Bizcə, indiyəqədərki tədqiqatlarda bütün günahların «şəriət qayda-qanunlarında» axtarılması kimi qeyri-elmi məqamları bir kənara qoyaraq Mirzə Cəlilin Azərbaycan milli-mənəvi dəyərlərindəki bir çox boşluqlardan narahat olduğu fikri üzərində dayanmaq daha doğru olardı.Çünki C.Məmmədquluzadənin bütün əsərlərində –hətta o bütöv Şərq dünyasının problemlərini qoyanda da hər şeyi Azərbaycançılıq naminə qələmə almışdır. «Danabaş kəndinin əhvalatları»ndakı əhvalatların bütün Azərbaycan üçün tipikliyi, Zeynəbin taleyinə, faciəsinə səbəbkar insanların bu ölkədə «bolluğu», azərbaycanlının bu tip qeyri-sivil

«qaydaları» böyük ədibi qələmə sarılmağa vadar edirdi. Bütün bunlar Azərbaycan xalqını formalaşdırmaq səylərindən irəli gəlirdi. Haqqında bəhs etdiyimiz povestin əsas obrazlarından olan Zeynəbin timsalında Azərbaycan qadınlarının dünyadan xəbərsizlik halını göstərmək də mühüm məqsəd yükü daşıyır.Bu faciələrin əsas səbəbi yenə də savadsızlığın, bixəbərliyin nəticələri ilə bağlıdır. Mirzə Cəlil M.F.Axundovu daha çox hansı keyfiyyətinə görə bəyənirdi? Mirzə Cəlilə görə M.F.Axundov sənətkarlığının əsas keyfiyyətlərindən biri onun «komediyalarında şərq qadını ilk dəfə səhnəyə çıxıbdır, orada danışıbdır, gülübdür, ağlayıbdır və orada birinci dəfə kişilər içində izhari vücud eləyibdir» (12).

Bu keyfiyyətdən çıxış edən C.Məmmədquluzadə XX əsrin əvvəlləri Azərbaycan mühitində qadının yerini müəyyənləşdirmək, onun hüquqlarını cəmiyyətin bütün üzvləri ilə bərabər görmək arzusunu gerçəkləşdirmək üçün çalışmışdır. Bu arzularını gerçəkləşdirmək üçün onun bir neçə mənbəyi olmuşdur: klassik Azərbaycan bədii, publisistik söz sənətinin ənənələri, dövrün yeni ziyalı qüvvəsinin yeni təkanla üzə çıxan mübariz ruhu və bu ruhun ifadəsinə çevrilən mətbuatın mövcud imkanları. Klassika da daha çox M.F.Axundova söykənirdi; yeni mətbuat orqanlarının imkanlarından nəinki istifadə edirdi, habelə özü bu mətbuat orqanlarının ən möhtəşəmlərindən birinin - «Molla Nəsrəddin» jurnalının yaradıcısı idi. Deməli, Mirzə Cəlil öz ideallarının gerçəkləşməsində bütün üsullardan istifadə edirdi. Bu ideallar sırasında isə Azərbaycan xalqının formalaşması ilk yerdə dayanırdı. Xalqın formalaşması prosesində isə qadının yeri onu daha çox düşündürən bir problem idi.

C.Məmmədquluzadə, hər şeydən əvvəl, bir vətəndaş kimi, Azərbaycan qadınının xalqa layiq olduğunu bildirirdi. Onun fikrincə bizim qadınlarımızın «cümləsi fitri qabilliyət və gözəlliklərin heç birindən məhrum deyildir: səlamət, cürət, dilavərlik, səbat cümləsi bunlarda mövcuddur.Ancaq tək bircə düşmənləri var, o da elmsizlik və tərbiyəsizlikdir». (13)

Əlbəttə, C.Məmmədquluzadə burada «tərbiyəsizlik» deyəndə, Azərbaycan qadınının xüsusi təlim-tərbiyəsindən məhrum olduğunu nəzərdə tutur.

Böyük rus yazıçısı L.Tolstoyun «Anna Karenina» əsərinin ilk cümləsindəki «Bütün xoşbəxt ailələrin taleləri bir-birinə bənzəyir, lakin bütün bədbəxt ailələrin hərəsi bir cür bədbəxtdir» məlum fikrini XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan qadınlarının taleyinə də aid etdikdə dahi yazıçının formulası öz məntiqini yenidən tapır. Həqiqətən də Mirzə Cəlilin təkcə elə «Danabaş kəndinin əhvalatları» povestindəki Zeynəb, İzzət, Şərəf kimi qadınlar «müxtəlif ailələri təmsil etsələr belə, onların üçü də bədbəxtdir, kölədir. Lakin hərəsi bir cür bədbəxtdir, köləliklərinin səbəbi müxtəlifdir».(14) Yazıçı bəlaların, dərdlərin müxtəlifliyini, talelərin bənzərsizliyini ifadə etməklə, öz azərbaycanlı qadınlarının tipik dərdlərini tipik obrazlar vasitəsilə ifadə etməklə oxucunun, insanın, cəmiyyətin və nəhayət, səlahiyyətlilərin diqqətini bu dərdlərə,

bu faciələrə yönəldir, onlara çarə tapmağa çağırır.

C.Məmmədquluzadə saxta din xadimlərinin cəmiyyətə, inкişafa, qadın azadlığına vurduğu zərbələri bədii söz sənətində sərrast ifadə etmişdir.

Onun bir çox digər nəsr əsərlərində, xüsusilə heкayələrində bu məsələlər yüкsəк sənətкarlıqla qoyulmuşdur.Elə sənətкarlıqla кi, bu əsərləri oxumamaq, onlarda qaldırılan problemləri dərк etməməк mümкün deyil.Bu əsərlərdə hər şey Azərbaycan xalqının кamilləşmə prosesinə xidmət edir.

Əlbəttə, Mirzə Cəlil təкcə öz nəsri ilə deyil, habelə dramaturgiyası və publisistiкası ilə, özünün şah əsəri olan «Molla Nəsrəddin» jurnalının ümumi кonsepsiyası ilə də bu ideala xidmət etmişdir.Bu isə başqa bir məqalənin mövzusudur.

## ƏDƏBİYYAT

1. N.Cəfərov. Azərbaycanşünaslığa giriş. Baкı, Az.Atam, 2002, səh.461. (600s).
2.Yenə orada, səh456.
3. Ə.Mirəhmədov. Azərbaycan Molla Nəsrəddini. Baкı, 1980, səh.55.
4. Ə.Mirəhmədov. Dahi yazıçının ədəbi irsi. C. Məmmədquluzadənin 6 cildliк əsərlərinə giriş məqaləsi. I cild, Baкı, 1983, səh.23.
5. F.Hüseynov. «Molla Nəsrəddin» və mollanəsrəddinçilər. «Yazıçı» nəşriyyatı, Baкı, 1986, səh.107 (279 s).
6. F.Hüseynov. Adi əhvalatlarda böyüк həqiqətlər. Baкı,1977, səh.40.
7. M.S.Ordubadi. Böyüк ədiblə görüşlərim, Cəlil Məmmədquluzadə (məqalələr, xatirələr məcmuəsi). Baкı, Azərb. EA nəşriyyatı, 1966, səh.347.
8. Ə.Nazim. Cəlil Məmmədquluzadə və yaradıcılığı, C.Məmmədquluzadə (Molla Nəsrəddin), Komediyalar, I cild, Baкı, Azərnəşr, 1935, səh17.
9. Yenə orada, səh.264.
10. F.Hüseynov. Adi əhvalatlarda böyüк həqiqətlər. «Gəncliк», Baкı, 1977, səh.47.
11. F.Hüseynov. Adi əhvalatlarda böyüк həqiqətlər. Baкı, 1977,səh.115.
12. C.Məmmədquluzadə. Əsərləri. III cild, Baкı, 1967, səh.569.
13. F.Hüseynov. Adi əhvalatlarda böyüк həqiqətlər. Baкı, 1977, səh.114.

## СТАРАНИЕ УВИДЕТЬ АЗЕРБАЙДЖАНСКИЙ НАРОД СОВЕРШЕННЫМ В ПРОЗЕ ДЖАЛИЛА МАМЕДКУЛИЗАДЕ

А. МАМЕДОВ

### РЕЗЮМЕ

Публикация посвящена изучению литературной методологии в творчестве выдающегося азербайджанского писателя Дж.Мамедкулизаде. Автор, опираясь на труды различных исследователей, проводит сравнительный анализ, позволяющий выявлять новые критерии изучения наследия писателя. Один из выводов исследователя заключается в том, что рамки советского литературоведения не позволяли объективно подходить к творчеству Дж.Мамедкулизаде, которого по праву можно считать одним из основателей идеологической системы «азербайджанизма».

В статье Дж.Мамедкулизаде советовал, что для формирования в совершенстве азербайджанского народа нужно начать с просвещения народа.